**Azərbaycan Respublikasının vergilər nazirinin "21" may 2015-ci il tarixli 1517040100646900 nömrəli əmri ilə təsdiq edilmişdir.**

# VƏZİFƏ TƏLİMATI № 2-7

| | |
|---|---|
| **Strukturun adı:** | Vergilər Nazirliyinin Tədris Mərkəzi |
| **Şöbənin adı:** | Maliyyə və təsərrüfat şöbəsi |
| **Vəzifənin adı:** | baş iqtisadçısı |
| **Vəzifə maaşı:** | 540 manat |
| **İş yerinin yerləşdiyi yer:** | Şamaxı rayonu |
| **Bilavasitə tabe olduğu şəxs:** | şöbə rəisi |
| **Vəzifə funksiyaları:** | 1. Mərkəzin saxlanılmasına smeta xərclərinin layihəsini tərtib etmək;<br>2. Mərkəzin saxlanılması xərclərinin maliyyələşdirilməsi üzrə təsdiq olunmuş xərc cədvəlinə (maliyyə planına) müvafiq olaraq kredit açılmasının təmin edilməsi işində iştirak etmək;<br>3. Ştat cədvəlinin tərtib olunmasına dair təkliflər hazırlamaq;<br>4. Ştat cədvəlinin tərtib edilməsini yerinə yetirmək;<br>5. Mərkəzin maliyyə və təsərrüfat fəaliyyətinə dair statistik və digər hesabatları tərtib etmək, həmin hesabatların Vergilər Nazirliyinə və aidiyyəti üzrə digər orqanlara və təşkilatlara təqdim olunmasını təmin etmək;<br>6. Mərkəzin iqtisadiyyat və maliyyə məsələləri ilə əlaqədar digər təşkilatlarla yazışmaları hazırlamaq;<br>7. Müxtəlif nazirlik, komitə, idarə, müəssisə və təşkilatlardan zəruri məlumatların və texniki normativlərin alınmasını təmin etmək;<br>8. Şöbənin Əsasnaməsinə uyğun olaraq iqtisadiyyat və maliyyə məsələləri ilə əlaqədar digər vəzifələri yerinə yetirmək. |
| **Təhsil və ixtisas tələbləri:** | iqtisadiyyat və idarəetmə ixtisas istiqamətləri üzrə ali təhsil |
| **Staja dair tələb:** | bir qayda olaraq vergi orqanlarında 2 il xidmət |
| **Kompüter biliklərinə dair tələblər:** | (MS OFFICE, INTERNET) – orta səviyyədə istifadə |
| **Xarici dil bilikləri:** | bir xarici dil - orta səviyyədə |
| **Problemi həll etmək bacarığı:** | aşağı səviyyədə |
| **Qərarvermə qabiliyyəti:** | aşağı səviyyədə |
| **Ünsiyyət qabiliyyəti:** | aşağı səviyyədə |

Tərtib etdi: **İnsan resursları idarəsi və vəzifə təlimatlarının hazırlanması üzrə işçi qrup**

**Qeyd:** bu vəzifə Azərbaycan Respublikası Prezidentinin 15 aprel 2005-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə"yə müvafiq olaraq müsabiqə və ya vergi orqanlarında xidmət edən əməkdaşlar üçün Vergilər Nazirliyinin əmrləri əsasında tutulur.